

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 192 (21.344)

3 oktyabr 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymıti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Türkiyə Respublikasının gömrük və ticarət naziri Cenap Aşçının başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

İki ölkənin gömrük orqanlarının birgə komissiyasının fəaliyyətə başlamasının əhəmiyyətinə toxunan dövlətimizin başçısı komissiyanın iclasında bu sahə ilə bağlı müxtəlif məsələlərin müzakirə ediləcəyinə, qarşılıqlı təcrübə mübadiləsinin aparılacağına ümidvar olduğunu bildirib.

Ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını xatırlayan Cenap Aşçı Türkiyənin Azərbaycan ilə bütün istiqamətlərdə, o cümlədən gömrük sahəsində çox yaxşı əlaqələrə malik olduğunu vurğulayaraq bu sahədə ölkələrimiz arasında qarşılıqlı təcrübə mübadiləsinin aparılmasının hər iki tərəf üçün böyük əhəmiyyət daşıdığını deyib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 2 oktyabr tarixli sərəncamları ilə Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə bir qrup təhsil işçisi təltif edilmişdir. Təltif edilənlər arasında Naxçıvan Muxtar Respublikasının təhsil işçiləri də var.

**"Əməkdar müəllim" fəxri adı ilə:**

Əzimova Xuraman Hüseyn qızı

Fətullayeva Alidə Cəlal qızı

Haqverdiyeva Məlahət Çingiz qızı

Mirzəyeva Həmidə Abbas qızı

**"Tərəqqi" medalı ilə:**

Abdullayeva Rəfiqə İsa qızı

Əliyeva Mədinə Şirzad qızı

Əliyeva Vüsalə Abazər qızı

Seyidova Yeganə Mirabbas qızı

## Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi işçilərinin təltif edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında məhkəmə hakimiyyəti orqanlarında və dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə:

Quliyev Vüqar Kərim oğluna

Mirzəyev İlqar Məhərrəm oğluna – **"Əməkdar hüquqşünas"** fəxri adı;

Vəliyev Yunis Əziz oğluna – **"Əməkdar dövlət qulluqçusu"** fəxri adı;

Seyidova Xasa Seyidəli qızına – **"Rəşadətli əməyə görə"** nişanı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 2 oktyabr 2015-ci il*

## Ulu öndər Heydər Əliyev və müstəqil Azərbaycan

***Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Naxçıvan Müəllimlər İnstitutunun tələbələrinin iştirakı ilə "Ulu öndər Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda açıq dərs keçilib.***

Muzeyin direktoru Ramil Orucəliyev açıq dərsdə bildirib ki, müstəqil Azərbaycan ümummilli lider Heydər Əliyevin şah əsəridir. Bütün mənalı ömrünü xalqımızın nicatına həsr etmiş bu dahi şəxsiyyət Azərbaycan dövlətçiliyinin siyasi-ideoloji əsaslarını yaradıb, ölkəmizin müstəqilliyinin əldə olunması, qorunması və inkişaf etdirilməsində misilsiz xidmətlər göstərib. Ulu öndər Heydər Əliyev ölkəmizə rəhbərliyinin hər iki dövründə Azərbaycanı düşdüyü ağır vəziyyətdən xilas edib, respublikamızı inkişaf yoluna çıxarıb.

Bildirilib ki, ulu öndər Heydər Əliyevin prinsipiallığı, cəsarəti, milli ideyalara bağlılığı nəticəsində hələ sovet dövründə gələcəyin müstəqil Azərbaycanı naminə cəsarətli addımlar atılaraq Azərbaycan dili rəsmi dövlət dili kimi təsbit edilib, iqtisadiyyat, elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrin inkişafında ciddi nailiyyətlər əldə olunub.

Qeyd edilib ki, ötən əsrin sonlarında Azərbaycan öz dövlət müstəqilliyini bərpa etsə də, bu müstəqilliyimiz xeyli çətinliklərlə qarşılaşıb. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1990-1993-cü illərdə Naxçıvandan başlanan müstəqillik yolu Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrilib, milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxarıb. Ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasında qəbul olunan tarixi qərarlar müstəqillik yolunda irəliləyən Azərbaycanın dövlətçilik tarixində mühüm yer tutur.

1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdan ulu öndərimizin qətiyyəti və əzmkarlığı sayəsində ölkə parçalanmaqdan, vətəndaş müharibəsindən qurtulub. Onun dühasının qüdrəti sayəsində Azərbaycanda siyasi və milli-ideoloji birliyin təməli qoyulub, dövlətçilik ənənələri milli düşüncə tərzinə çevrilib.

Vurğulanıb ki, dövlət quruculuğu sahəsində əldə olunmuş nailiyyətlər, qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətinin qurulması və sair bu kimi uğurlar Heydər Əliyev dühasının bəhrələridir. Məhz dahi liderin fəaliyyəti nəticəsində Azərbaycan Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlayaraq dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilib.

Qeyd olunub ki, bu gün Azərbaycan regionun çox mühüm ölkəsidir. O, Cənubi Qafqazda həlledici geosiyasi əhəmiyyətə malikdir. Azərbaycan həm də Şərqə və Mərkəzi Asiyaya açılan "geosiyasi pəncərə"dir. Bu gün respublikamızın inkişafı dünyanın aparıcı dövlətləri ilə müqayisə olunur, Azərbaycan siyasi, iqtisadi, hərbi baxımdan daha da güclənir, beynəlxalq aləmdə nüfuzumuz durmadan artır. Biz bütün bu nailiyyətlərə Heydər Əliyevin işıqlı yolunun uğurla davam etdirilməsi nəticəsində nail olmuşuq.

Sonra tələbələr ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar.

Qeyd edək ki, muzeydə Naxçıvan Dövlət Texniki və Musiqi kolleclərinin tələbələri üçün də açıq dərs keçilib.

## İxtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi yüksəkixtisaslı kadr hazırlığına böyük töhfə verəcəkdir



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il iyulun 27-də imzaladığı "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamın icrası ilə bağlı Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi Naxçıvan Dövlət Universitetinin hamiliyə götürülmüş pedaqoji profilli ixtisaslarında təhsil alan tələbələrlə görüşlər keçirir.***

Növbəti görüş oktyabrın 1-də təşkil olunub. Tədbiri universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq Azərbaycanda təhsilin inkişaf strategiyasından, ümummilli lider Heydər Əliyevin təhsil siyasətinin uğurlu davamından danışıb. Qeyd olunub ki, Naxçıvan Dövlət Universiteti tarixi inkişaf yolu keçən, çoxillik ənənələrə söykənən, yüksəkixtisaslı mütəxəssislər yetişdirən, güclü maddi-texniki bazaya malik olan, beynəlxalq əlaqələrini günbəgün genişləndirən ali təhsil ocağıdır. Rektor 27 iyul 2015-ci il tarixli Sərəncamın mühüm əhəmiyyətindən bəhs edib.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev tədbirdə çıxış edərək vurğulayıb ki, bu gün muxtar respublikamızda təhsilə diqqət və qayğı ən yüksək səviyyədədir. Yeni məktəb binalarının tikilib istifadəyə verilməsi, onların müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchizatı bu qayğının bariz nümunəsidir.

Ali və orta ixtisas məktəblərinə həm sənədvermə, həm də qəbulun nəticələrinin ilbəil yaxşılaşdığını vurğulayan təhsil naziri qeyd edib ki, 2014-cü ildə 117 ümumtəhsil məktəbinin məzunları qəbul imtahanlarında yüksək nəticələr göstərmişdisə, 2015-ci ildə belə məktəblərin sayı 129-a çatıb. Bildirilib ki, məzunlar ixtisas seçimi zamanı muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrinə daha çox üstünlük veriblər. 2015-ci ildə 1137 nəfər, yaxud ali məktəblərə qəbul olunanların 72 faizi Naxçıvan Muxtar Respublikasında yerləşən ali təhsil müəssisələrini seçiblər. Bu il yüksək balla ali məktəbə qəbul olunaraq Prezident təqaüdünə layiq görülən 8 nəfər tələbənin 4-ü Naxçıvan Dövlət Universitetində təhsil alır.

Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini Məmməd Qəribov bildirib ki, Təhsil Nazirliyinin əməkdaşları sərəncamdan irəli gələn vəzifələrin icrası ilə bağlı dəfələrlə Naxçıvan Dövlət Universitetində olaraq tələbələrlə görüşüb, onlarla söhbətlər aparıblar. Belə görüşlər zamanı yeni təlim metodu olan kurikuluma aid metodik vəsaitlər, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təbeliyində olan ümumtəhsil məktəbləri haqqında yazılı məlumatlar tələbələrə paylanılıb.

Sonda tələbələrə ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin tətbiqi adlı metodik vəsait paylanılıb.

**Mina QASIMOVA**

## Naxçıvan Beynəlxalq Hava Limanında payız-qış mövsümünə hazırlıq yüksək səviyyədədir

***Naxçıvan Beynəlxalq Hava Limanı muxtar respublikanın nəqliyyat infrastrukturunda mühüm obyektlərindən biridir. Son illərdə göstərilən dövlət qayğısı hesabına hava limanının maddi-texniki bazası gücləndirilib, sərnişin və yükdaşımalarının rahat və təhlükəsiz şəkildə həyata keçirilməsi üçün hərtərəfli şərait yaradılıb.***

Hava limanının fəaliyyətini daha da müasirləşdirmək və təhlükəsizliyi təmin etmək məqsədilə son illər müxtəlif təyinatlı yeni maşın-mexanizmlər alınıb. Payız-qış mövsümündə xidmət üçün nəzərdə tutulmuş bu texniki vasitələr limanın fasiləsiz və təhlükəsiz fəaliyyətinə geniş imkanlar açır.

Naxçıvan Beynəlxalq Hava Limanının Xüsusi avtomobil xidmətinin rəisi Mirkamal Seyidovun verdiyi məlumata görə, payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər daim diqqət mərkəzində saxlanılır. Mövsümlə əlaqədar həyata keçirilən tədbirlər nəticəsində, xüsusilə qış fəslində uçuş-enmə zolağının və perronun qardan, buzdan təmizlənməsi üçün istifadə olunacaq avtomobillər hazır vəziyyətə gətirilib. Belə ki, ABŞ istehsalı olan "Qlobal" markalı avtomaşın buzlaşma zamanı təyyarələrin hava limanında qəbul olunması üçün istifadə edilir. Bazasında qartəmizləyən kürək, fırçalı diyircək və yüksək təzyiqlə havavuran "MAN" və yəhərli dartıcı bazasında qartəmizləyən kürək, fırçalı diyircək və yüksək təzyiqlə havavuran "VOLVO" markalı avtomaşınlar, habelə "SUPRA" markalı frezer rotorlu qartəmizləyən, istilik verərək buzəridən qurğular və digər qarkürəyən texniki vasitələr ən soyuq və qarlı hava şəraitində belə, hava limanında xidmətin yüksək səviyyədə həyata keçirilməsinə şərait yaradır.



Bundan əlavə, işıq-siqnal sisteminin yararlılığının və qazanxana bölümündə istilik qazanlarının yoxlanması işləri başa çatdırılıb. Hava limanının mövsümün hadisəsiz başa vurulmasına cavabdeh xidmətlərinin maddi-texniki bazası möhkəmləndirilib. Bütün güc kabellərinin izolyasiyasına, dizel generatorlarına, transformatorlara, elektrik verilişi xətlərinə baxış keçirilib. Sərnişinlərin qış aylarında rahatlığının təmin olunması məqsədilə aerovağzal kompleksində profilaktik tədbirlər görülüb. Bir sözlə, yaradılan şərait və mövsümlə əlaqədar davam etdirilən tədbirlər payız-qış mövsümündə sərnişinlərə nümunəvi xidmət göstərməyə imkan verəcək.

**Xəbərlər şöbəsi**

# 1993-cü il 3 oktyabr: dövlətçiliyin, inkişaf və sabitliyin başlanğıc günü

**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:** ***Müstəqilliyimizin tarixində 1993-cü il müstəsna əhəmiyyətə malikdir. O zaman, mürəkkəb durumda xalqımız çox müdrik və tarixi bir seçim etmiş, Heydər Əliyevi ölkənin Prezidenti seçmişdir. Böyük nüfuza və şöhrətə malik olan bu siyasi xadim Azərbaycanda inkişafın təməlini qoymuş, bir sıra mühüm siyasi və iqtisadi islahatlara başlanmışdır.***



*1993-cü il oktyabrın 3-də Azərbaycan xalqı ümummilli lider Heydər Əliyevi Prezident seçməklə dövlət müstəqilliyimizin qorunub saxlanmasına, sabitliyə və davamlı inkişafa səs vermişdir.*

***“Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycanın bu ağır vəziyyətdən çıxması üçün çox iş görülməlidir. Bundan ötrü isə Azərbaycanın daxilində ictimai-siyasi sabitlik, bütün qüvvələrin, bütün təbəqələrin, bütün vətəndaşların milli birliyi, həmrəyliyi lazımdır”***, – deyən ulu öndər Heydər Əliyev ölkə rəhbəri seçildikdən sonra Azərbaycanda özbaşınalığa, anarxiyaya, xaosa son qoymaqla sosial sabitlik strategiyasını həyata keçirmiş, müstəqil respublikamızı zəiflədən bütün amillərin aradan qaldırılmasına nail olmuşdur. Beləliklə, uçuruma yuvarlanan, yox olmaq təhlükəsi ilə üz-üzə qalan Azərbaycan 1969-cu ildən başlanan quruculuq, inkişaf, yüksəliş xəttinə qayıtmışdır.

Ümummilli liderimizin Azərbaycana rəhbərliyinin 1969-1982-ci illərini əhatə edən birinci mərhələsi tarixdə sosial-iqtisadi tərəqqi dövrü kimi qalmışdır. Həmin illərdə Azərbaycanda sənaye komplekslərinin yaradılması, kənd təsərrüfatının, elmin, mədəniyyətin, incəsənətin inkişafı istiqamətində qətiyyətli addımlar atılmışdır. Azərbaycan sovet məkanında bütün sahələrdə qabaqcıl yer tutmuş, respublikamızın şöhrəti yüksəlmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə milli ruhun oyanışına təkan verilmiş, dilimizin, xalqımızın unudulmaqda olan adət-ənənələrinin, milli dəyərlərinin qorunub yaşadılması sahəsində kompleks tədbirlər həyata keçirilmişdir. Bir sözlə, Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsinə əsaslı zəmin yaradılmışdır.

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkədə hakimiyyətsizlik, özbaşınalıq, xaos və anarxiya hökm sürürdü. Dövlət müstəqilliyinin qorunub saxlanması, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi, Dağlıq Qarabağ probleminin milli maraqlara uyğun həlli, əhalinin təhlükəsizliyinin təmin olunması və nəhayət, Azərbaycanın parçalanmaqdan xilası həllini gözləyən ən mühüm vəzifələr idi. Daxili və xarici siyasətdəki uğursuzluqlar nəticəsində ölkənin müxtəlif bölgələrində separatçı qüvvələr baş qaldırmış, vətəndaş müharibəsi təhlükəsi yaranmışdı.

Bundan fərqli olaraq ulu öndər Heydər Əliyev Naxçıvanda Azərbaycan xalqının azadlıq, müstəqillik uğrunda mübarizəsinə rəhbərlik edir, burada müstəqil dövlətçilik ənənələrinin formalaşdırılması istiqamətində tarixi addımlar atırdı. Ulu öndərin uzaqgörən siyasəti sayəsində muxtar respublikanın adından “sovet sosialist” sözləri çıxarılmış, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul edilmişdir. Bu dövrdə görkəmli dövlət xadiminin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də qədim Naxçıvan torpağını erməni təcavüzündən xilas etməsi oldu. Naxçıvanın müdafiəsi sahəsində mühüm addımlar atıldı. Keçmiş sovet qoşunları bütün əmlakı və silah-sursatı saxlanılmaq şərtilə muxtar respublikadan çıxarıldı.

Naxçıvanda dövlətçiliyin, müstəqilliyin qorunub saxlanılması sahəsində tədbirlərin həyata keçirildiyi dövrdə bunun əksinə olaraq ölkəmizin digər bölgələri faktiki olaraq vətəndaş müharibəsinin astanasında idi. Artıq mövcud hakimiyyətsizlikdən, özbaşınalıqdan cana doymuş xalq ölkənin xilasını yalnız dahi rəhbər Heydər Əliyevdə görür, ümidlərini ona bağlayırdı. Azərbaycanı müstəqilliyə hazırlayan ulu öndərimiz isə deyirdi: ***“Suverenliyimizi daim yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq, bu gün hər bir azərbaycanlıdan müqəddəs Azərbaycan ideyası ətrafında əməl və əqidə birliyi, sarsılmaz həmrəylik tələb olunur”.***

Azərbaycanın belə bir ağır vəziyyətində xalqımız müstəqilliyimiz üçün yaranan təhlükədən xilas yolunu dünya şöhrətli siyasətçi Heydər Əliyevin yenidən ali hakimiyyətə qayıdışında gördü. Vətənin ağır günündə xalqın iradəsi ilə böyük siyasətə qayıdan ulu öndər Heydər Əliyev bacarıqlı dövlət xadimi kimi ölkəmizi düşdüyü çətin vəziyyətdən xilas etdi. Ümummilli lider zəngin dövlətçilik təcrübəsindən yararlanaraq uçuruma yuvarlanan, böhranlar içində çabalayan, gələcəyini heç kimin aydın təsəvvür etmədiyi bir ölkənin dünya birliyinin müstəqil subyekti olmaq hüququnu özünə qaytarmışdır. 1993-cü il iyunun 15-dən başlayaraq dahi rəhbərimizin qətiyyəti sayəsində Azərbaycan dinamik inkişaf yoluna çıxdı. Ölkə məhv olmaqdan xilas edildi, müstəqilliyimiz qorundu, ordu quruculuğuna start verildi, iqtisadiyyat gücləndirildi, torpaqlarımızın işğalının qarşısı alındı.

Ulu öndərin Naxçıvandan Bakıya qayıdışından 1993-cü il oktyabrın 3-nə təyin edilmiş prezident seçkilərinə qədər keçən üç ay müstəqillik tariximizin çox çətin bir dövrü idi. 1991-ci il oktyabrın 18-dən 1993-cü il iyunun 15-nə qədər yaşadığımız ağır və məhrumiyyətlə dolu günlərin arxada qalacağına inam və ümid yaranmışdı. 1993-cü ilin 3 oktyabr seçkiləri ərəfəsində insanlar bir-birlərinə xəbərdarlıq edirdilər: “Heydər Əliyev vətəndaş müharibəsinin qarşısını aldı, indi qalır müstəqilliyin qorunması”, “Heydər Əliyevdən başqa heç kəs bizim azadlığımızı qoruyub saxlaya bilməyəcək”, “Budəfəki seçkilərdə tarixi şansı əldən versək, ölkəmiz parçalanacaq, müstəqilliyimiz isə məhv olacaqdır”... Məhz bu çağırışlarla seçkiyə gedən Azərbaycan xalqı oktyabrın 3-də öz qətiyyətli sözünü deməyi bacardı. Həmin seçkilər, sözün həqiqi mənasında, Azərbaycan xalqının qarşısında duran ağır sınaq idi. Xalq bu sınaqdan da üzüağ çıxdı. Xalqın əzm və iradəsinin ifadəsi kimi yaddaşlara yazılan bu seçkidə ulu öndər Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu tarix həm də Azərbaycan xalqının öz tarixində ədalətli, şəffaf və demokratik seçki keçirmək ənənəsinin təməlinin qoyulduğu gün kimi əlamətdardır.

Prezident seçkilərində xalqın mütləq əksəriyyətinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən ulu öndərimiz 1993-cü ilin 10 oktyabrında dövlətə və xalqa sədaqət andı içərək demişdir: ***“Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm”.***

Təsadüfi deyil ki, müstəqil Azərbaycanın bu gün beynəlxalq aləmdə qazandığı istənilən uğur barədə söz açan xarici ekspertlər, ilk növbədə, ulu öndər Heydər Əliyevin adını çəkir, bugünkü Azərbaycanın məhz onun əsəri olduğunu söyləyirlər. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Müstəqilliyimizin tarixində 1993-cü il müstəsna əhəmiyyətə malikdir. O zaman, mürəkkəb durumda xalqımız çox müdrik və tarixi bir seçim etmiş, Heydər Əliyevi ölkənin Prezidenti seçmişdir. Böyük nüfuza və şöhrətə malik olan bu siyasi xadim Azərbaycanda inkişafın təməlini qoymuş, bir sıra mühüm siyasi və iqtisadi islahatlara başlanmışdır”.***

Ulu öndərin həyata keçirdiyi təxirəsalınmaz sosial-iqtisadi və siyasi tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir olan nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmağa başlandı, digər tərəfdən, atəşkəs əldə edildi, torpaqlarımızın işğalının qarşısı alındı, Azərbaycanın haqq səsi dünyaya çatdırıldı. Ölkə daxilində yaranmış sabitliyin, həmçinin beynəlxalq aləmdə Azərbaycana münasibətdə artan inamın nəticəsi olaraq 1994-cü ilin sentyabrında “Əsrin müqaviləsi” imzalandı. Bununla da, ulu öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanan və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının tərkib hissəsi olan neft strategiyasının əsası qoyuldu.

Ulu öndər Azərbaycanı qüdrətli, nüfuzlu, demokratik dövlət kimi görmək istəyirdi. Xalqımızın böyük oğlunun uzaqgörən siyasəti nəticəsində 1995-ci ilin noyabrında demokratik, hüquqi dövlətin təməlini təşkil edən Konstitusiya qəbul olundu. Bununla da, ölkəmizdə hüquqi dövlət quruculuğu prosesinə başlanıldı, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsinə xidmət edən qanunvericilik bazası yaradıldı, demokratik cəmiyyət formalaşdırıldı.

Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən əsas işlərdən biri də, qeyd etdiyimiz kimi, ölkənin dünya birliyinə inteqrasiyasının təmin olunması idi. Ulu öndər Heydər Əliyevin uğurlu xarici siyasət kursu nəticəsində beynəlxalq təşkilatlarla bərabərhüquqlu əməkdaşlığın əsası qoyuldu. Yeni kollektiv sənədlərə və beynəlxalq müqavilələrə qoşulan Azərbaycan özünün coğrafi mövqeyindən, təbii ehtiyatlarından, iqtisadi potensialından istifadə əsasında bir çox dövlətlərlə və beynəlxalq qurumlarla əməkdaşlıq edərək Böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması, Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarına çıxarılması layihələrinin icraçısına çevrildi.

Ümummilli liderimiz Heydər Əliyevin 1993-cü il oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti seçilməsi xalqımızı həqiqi müstəqilliyə, Azərbaycan dövlətini isə inkişaf və tərəqqiyə qovuşdurdu. Ötən 22 il bir daha təsdiq etdi ki, Azərbaycan dövlətçiliyinin və müstəqilliyinin yeganə təminatı ümummilli lider Heydər Əliyevin siyasi xəttinin davam etdirilməsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“1993-cü ilə qədər Azərbaycanda hakimiyyətsizlik, siyasi hərc-mərclik, vətəndaş qarşıdurması hökm sürürdüsə, həmin tarixdən sonrakı dövr ölkəmizdə dövlət müstəqilliyinin möhkəmlənməsi ilə xarakterizə edilir. 1993-cü ildən sonra Azərbaycanın inkişafı göz qabağındadır. Əgər o vaxt Azərbaycanda xaos hökm sürürdüsə, bu gün Azərbaycanda sabitlikdir. O vaxt Azərbaycanda hərc-mərclik var idisə, bu gün Azərbaycanda əmin-amanlıqdır. O vaxt Azərbaycanın iqtisadiyyatı tənəzzülə uğrayırdısa, bu gün Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkələrdən biridir. O vaxt Azərbaycanda total böhran hökm sürürdüsə, bu gün Azərbaycan qüdrətli ölkəyə çevrilmişdir”.***

Bəli, 1993-cü il 3 oktyabr seçkilərinin bəhrəsini biz bu gün ölkəmizin ictimai-siyasi həyatında və sosial-iqtisadi inkişafında görürük. Ulu öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizi iqtisadi inkişaf baxımından dünyanın aparıcı dövlətlərinin sırasına yüksəldib. Bu gün Azərbaycan yoxsulluğun və işsizliyin azaldılmasına, adambaşına düşən ümumi daxili məhsul istehsalının həcminə, beynəlxalq aləmə inteqrasiya və bir çox göstəricilərə görə dünyanın öncül dövlətləri sırasındadır. Ölkəmiz regionda söz sahibinə çevrilmişdir. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin, Bakı-Tbilisi-Qars dəmir yolunun, TANAP və TAP kimi beynəlxalq enerji layihələrinin həyata keçirilməsi Azərbaycanın dünyadakı siyasi və iqtisadi qüdrətini günbəgün artırmaqdadır.

Artıq Azərbaycan beynəlxalq tədbirlərə ev sahibliyi edən, insan hüquq və azadlıqlarının sözdə yox, real həyatda təmin olunduğu ölkədir. Azərbaycan güclü dövlətçiliyə və iqtisadiyyata malikdir. Azərbaycanda geniş sosial infrastruktur vardır. Ən nəhayət, Azərbaycan ümummilli lider Heydər Əliyevin siyasi xəttinin davam etdirildiyi, xalq-dövlət birliyinin mövcud olduğu sabitlik adasıdır.

***Ulu öndərin inkişaf strategiyasının reallaşdırılması Naxçıvanı da çiçəklənən diyara çevirmişdir. Naxçıvan Muxtar Respublikası hazırda ulu öndərimizin adına və arzularına layiq şəkildə inkişaf etdirilir, yenidən qurulur. Son illər muxtar respublikanın keçdiyi inkişaf yolu ulu öndər Heydər Əliyevin ideyalarına sədaqətin təcəssümüdür. Naxçıvan Muxtar Respublikası Azərbaycanın iqtisadi rayonları arasında inkişaf dinamikasına görə öncül mövqedədir. Bu gün muxtar respublikada inkişafdan kənarda qalan sahə yoxdur. Bütün infrastruktur yeniləşdirilmiş, xüsusi zövqlə, diqqət və qayğı ilə yenidən qurulmuş, müasir tələblər səviyyəsinə çatdırılmışdır. Bu gün muxtar respublikamızın paytaxtı Naxçıvan şəhəri, eləcə də digər şəhər, qəsəbə və kəndlərimiz yeniləşmə və inkişaf dövrünü yaşayır. Hərtərəfli və dinamik inkişafın real təzahürləri hər addımda göz oxşayır, könül açır. Vətənə böyük məhəbbətlə görülən işləri hər kəs rəğbət və minnətdarlıqla qarşılayır. Bütün bunlar isə 1993-cü il oktyabrın 3-də xalqımızın müdrik seçiminin bəhrələridir.***

**“Şərq qapısı”**

# Siyasi elmlər üzrə fəlsəfə doktoru Rza Talıbovun “Asiya ölkələri beynəlxalq münasibətlər sistemində” kitabının təqdimatı olub

***Oktyabrın 2-də Naxçıvan Dövlət Universitetində Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru Rza Talıbovun Azərbaycan və rus dillərində çapdan çıxmış “Asiya ölkələri beynəlxalq münasibətlər sistemində” kitabının təqdimat mərasimi keçirilib.***

Tədbiri universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq deyib ki, müəllif dünya siyasətində gedən proseslərin fonunda Asiya ölkələrini siyasi-iqtisadi, eləcə də diplomatik və mədəni əlaqələr baxımından təhlil etmiş, həmin ölkələrin Azərbaycanla ikitərəfli və çoxşaxəli əməkdaşlıq məsələlərini geniş araşdırmaya cəlb etmişdir. Bu mənada “Asiya ölkələri beynəlxalq münasibətlər sistemində” kitabı Naxçıvan Dövlət Universitetinin müəllim və tələbələri, tədqiqatçılar, politoloqlar üçün sanballı elmi ədəbiyyat və dərs vəsaitidir. Kitabın böyük elmi maraq doğurması, rus dilinə tərcümə və nəşri bunu bir daha təsdiq edir.

Universitetin Beynəlxalq münasibətlər kafedrasının müdiri, dosent Yusif Hüseynov dərslik barədə danışaraq qeyd edib ki, yeni nəşr dünya siyasətində Asiya ölkələrinin çəkisinə və roluna artan maraq çərçivəsində bu ölkələrin geostrateji və geosiyasi araşdırılması baxımından mövcud boşluğu aradan qaldırmağa xidmət edən sanballı elmi-tədqiqat əsəridir. 6 fəsildən və 27 yarımfəsildən ibarət kitabda Çin Xalq Respublikası, Yaponiya, Koreya Respublikası, Sinqapur, Malayziya və Vyetnam Sosialist Respublikasının dünya dövlətləri ilə siyasi-diplomatik münasibətləri, iqtisadiyyat, elm, təhsil, səhiyyə kimi çoxcəhətli əməkdaşlığı araşdırılmış, bu dövlətlərin tarixi inkişaf yolu və bugünkü sosial-iqtisadi vəziyyəti haqqında müfəssəl məlumat verilmişdir. Müəllif gərgin elmi axtarışların, tədqiqatların nəticəsində belə bir elmi qənaətə gəlir ki, Asiya beynəlxalq münasibətlərin tənzimlənməsində aparıcı qüvvə, dünya siyasətinin əsas mərkəzlərindən biri, böyük iqtisadi sıçrayışlar məkanı, elm, təhsil, texnologiyanın tərəqqisi ilə fərqlənən bir qitədir. Böyük siyasi uzaqgörənlik və analitik-siyasi təfəkkürün məhsulu olan əsərdə Asiya ölkələrinin gələcək müqəddəratı barədə də maraqlı siyasi proqnozlar verilir. Kitab Azərbaycan Respublikasının Şərq və Qərb arasındakı rolu elmi qənaəti, Asiya qitəsi ölkələrinin beynəlxalq münasibətlər sistemindəki özünəməxsus yerinin müəyyənləşdirilməsi baxımından siyasətşünaslıq elminə qiymətli töhfə hesab oluna bilər.



Təqdimat mərasimində Beynəlxalq münasibətlər kafedrasının dosentləri, tarix üzrə fəlsəfə doktorları Şamxal Məmmədov və Emin Şıxəliyev çıxış edərək çoxsaylı yerli və xarici elmi, elmi-kütləvi mənbələrə əsaslanaraq yazılan yeni dərsliyin müxtəlif məziyyətlərindən danışıblar. Qeyd olunmuşdur ki, siyasi elmlər üzrə fəlsəfə doktoru Rza Talıbovun Asiya ölkələrinin beynəlxalq siyasətdə oynadıqları rola, tutduqları mövqeyə və qazandıqları nüfuzlara diqqət çəkməsi hər bir oxucuda dolğun təəssürat yaratmaqdadır. Müəllif eyni zamanda beynəlxalq münasibətlər sisteminin tərkib hissəsi kimi Azərbaycan Respublikasının da Asiya ölkələri ilə çoxcəhətli əlaqələrinə yer verməş, ölkəmizin Asiya qitəsində tutduğu yerin öyrənilməsinin aktuallığını geniş şərh etmişdir. Kitabda Azərbaycan Respublikasının Asiya qitəsi dövlətləri ilə əməkdaşlıq əlaqələri, eləcə də Asiya regionunda yaranmış beynəlxalq və regional qurumlarla münasibətlər xüsusi yer tutur. Dərslikdə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycanın yürütdüyü diplomatik siyasət, Asiya ölkələri ilə qarşılıqlı və çoxşaxəli əlaqələri, bu əməkdaşlığın Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ilə bağlı dəyərli məlumatlar da əksini tapıb.



Çıxış edənlər müəllifi qiymətli elmi nəşrə görə təbrik edərək ona yeni-yeni yaradıcılıq uğurları arzulayıblar.

Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Rza Talıbov tədbirin təşkilatçılarına təşəkkür edib, müasir dünyada baş verən siyasi proseslərdə Asiyanın müstəsna yerinin olduğunu diqqətə çatdırıb. Asiya ölkələrinin hər birinin yüksəlişinin, beynəlxalq əlaqələrinin xüsusi araşdırma tələb etdiyini bildirən Rza Talıbov onu da diqqətə çatdırıb ki, bu ölkələr haqqında yeni elmi nəşrlər üzərində işləmək gələcək planları sırasındadır.

Sonda Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ali məktəb kollektivi adından müəllifi təbrik edərək elmi-pedaqoji fəaliyyətində uğurlar arzulayıb.

Yeni dərslik universitetin müəllim və tələbələrinə hədiyyə edilib.

**“Şərq qapısı”**

***Bakı Dövlət Universiteti Beynəlxalq münasibətlər kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru Rza Talıbovun 2015-ci ildə “Elm və təhsil” nəşriyyatında çapdan çıxmış “Asiya ölkələri beynəlxalq münasibətlər sistemində” kitabı olduqca aktual bir mövzuya həsr olunmuşdur. Kitabda Asiya ölkələrinin dünya siyasətində və beynəlxalq münasibətlər sistemindəki əhəmiyyəti, yeri və mövqeyi araşdırılmışdır.***

# Asiya ölkələri beynəlxalq münasibətlər sistemində




Kitab Asiya ölkələrinin beynəlxalq siyasətdəki yerinin müəyyənləşdirilməsi baxımından bu sahədə mövcud boşluğu aradan qaldıran əhəmiyyətli tədqiqat materialıdır. Əsər bir çox cəhətdən aktual və əhəmiyyətlidir. Hər şeydən əvvəl ona görə ki, dünya əhalisinin yarıdan çoxunun Asiyada cəmləşməsi bu qitənin cazibə qüvvəsini artırmışdır. Artıq Asiya ölkələri beynəlxalq münasibətlərin ön sırasında çıxış edən ciddi və əhəmiyyətli dövlətlərdir. Asiya qitəsini, Asiya ölkələrini öyrənmək müasir dünya siyasətini, beynəlxalq münasibətlərin yeni mənzərəsini dolğun, əhatəli və obyektiv şəkildə təsəvvür etməkdə mühüm əhəmiyyətə malikdir. Məhz bu baxımdan Rza Talıbovun əsəri Asiya ölkələrinin beynəlxalq siyasətdə oynadığı rolun müəyyənləşdirilməsində alim və tədqiqatçılara işıq tutan dəyərli elmi mənbədir.

Kitab 6 fəsildən ibarətdir. Üç yarımfəsildən ibarət olan birinci fəsildə Çin Xalq Respublikasının beynəlxalq münasibətlər sistemində oynadığı rol, tutduğu mövqe və nüfuzu araşdırılmışdır. Müəllif bu fəsildə çox incə məqamlara xüsusi diqqət çəkmiş, ölkənin keçmişi və bu günü haqda oxucuda dolğun təəssürat yarada bilmişdir.

Məlum olduğu kimi, Uzaq Şərq XIX əsrdə müstəmləkəçiliyin iki aktiv sahələrindən biri idi. Sənaye inqilabını tamamlamış dövlətlər bu regionda daim münaqişə içərisində olmuşdular. Uzaq Şərqin ən böyük dövlətlərindən olan Çinin Avropa ilə əlaqələri XIII əsrə qədər gedib çıxır. Lakin Orta əsrlərdən başlayaraq Çinin Avropa ilə əlaqələri kəsildi. Bu dövlət öz qapılarını Qərbə bağladı, bunun da əsas səbəbi Qərb dövlətlərinin Çində xristianlığı yaymaq adına apardıqları təbliğat və missionerlik fəaliyyətləri ilə əlaqədar idi. Bu fəaliyyətlərə sərt reaksiyalar verən Çin Qərb dövlətləri ilə olan bütün əlaqələrini ən aşağı səviyyəyə endirdi. Ticarət aparılan bütün limanlar (Kanton limanı istisna olmaqla) bağlanmış, əcnəbi düşmənçiliyi güc qazanmışdı. Lakin Avropa dövlətləri tədricən sənayeləşməyə başlayınca bu ölkələrin xammala və bazara olan ehtiyacı da artmışdı. Çin o dövrdə tiryək bazarı baxımından son dərəcə vacib ölkə idi.

İkinci Dünya müharibəsindən sonra Çin müstəmləkə dövlətlərinin rəqabət meydanından çıxaraq dünyanın ən güclü dövlətlərindən birinə çevrildi. Hal-hazırda sahib olduğu torpaqları, əhalisi, təbii zənginlikləri, daim artan iqtisadiyyatı, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında veto hüququ, malik olduğu nüvə silahları və beynəlxalq sistemə təsir gücü ilə Çin Xalq Respublikası beynəlxalq münasibətlərin ən önəmli faktoruna çevrilmişdir.

İkinci fəsil dünya siyasətinin cazibə qüvvəsi kimi Yaponiyanın beynəlxalq münasibətlər sistemindəki yerinə həsr edilmişdir. Bu fəsildə oxucu çox maraqlı faktlarla qarşılaşır. Elmi ədəbiyyatda Gündoğar ölkə kimi tanınan Yaponiya vaxtilə sioqunluq və samuraylıq ənənələri əsasında həyat tərzi keçirirdi. Lakin XIX əsrin sonlarında Qərbə açılmaqla dünyanın strateji gücləri arasında seçilib-sayılan dövlətə çevrildi və “Sarı irq milləçiliyi”ni ortaya ataraq Uzaq Şərqin lider dövləti oldu. Samuraylar ölkəsi kimi də tanınan Yaponiya qılınc sistemindən çıxmaqla XIX əsrin sonlarında sənaye inqilabını tamamlayaraq Avropa dövlətləri ilə rəqabət aparan dövlətə çevrildi və özünə hərbi yol cızdı. Vaxtilə eynilə Çin kimi Qərb dövlətlərinin rəqabət meydanına çevrilən Yaponiya 40 il içərisində inkişaf edərək Avropa dövlətlərinin qarşısına müstəmləkələşmiş bir dövlət kimi yox, müstəmləkəçi dövlət olaraq çıxdı, Çin və Rusiya ilə müharibələr apararaq onların üzərində böyük qələbələr qazandı. Daha sonra torpaqlarını Mancuriya və Çinə qədər genişləndirdi və ABŞ-ın İkinci Dünya müharibəsinə qatılmasına səbəb oldu. Müharibədən sonra ticarət dövləti olma strategiyasını ortaya qoyan Yaponiya 1990-cı illərdə dünyanın ən böyük ikinci iqtisadi gücünə çevrildi. Hal-hazırda dünya siyasətinin əsas cazibə mərkəzlərindən və qüvvələrindən biri olan Yaponiya beynəlxalq proseslərdə özünün siyasi rolunu gücləndirməyə çalışır.

Kitabın üçüncü fəslində Koreya Respublikasının dünya siyasətində tutduğu yer və mövcud vəziyyət araşdırılmışdır. Bu fəsildə Koreyanın tarixi proseslərdə qarşılaşdığı məsələlər, keçmişi və müasir vəziyyəti ilə bağlı oxucunun diqqətini çəkən maraqlı məlumatlar yer almaqdadır. Koreya Respublikasının dünya siyasətində yerinin və mövqeyinin müəyyənləşməsi, bu ölkənin beynəlxalq təşkilatlarda təmsil olunması XX əsrdə baş vermiş müxtəlif tarixi proseslərlə və iqtisadi islahatlarla bağlıdır. XIX əsrin sonlarında Çin-Yapon müharibəsinə səbəb olan, İkinci Dünya müharibəsinə qədər Yaponiyanın müstəmləkəsi sayılan Koreya beynəlxalq güclərin toqquşması nəticəsində 1954-cü ildə ikiyə bölündü. Yaxın keçmişdə digər dünya ölkələrindən yardımlar almaqla yaşayan Koreya Respublikası hal-hazırda donor dövlət olaraq qrantlar ayırır. Ölkənin sürətli iqtisadi inkişafı xalqın güclü iradəsi və çalışqanlığı ilə əlaqədardır. Tarix baxımından çox da böyük olmayan zaman ərzində Koreya Respublikası siyasi böhrandan çıxmış, inkişaf etməkdə olan ölkədən inkişaf etmiş dövlət səviyyəsinə gəlib çatmışdır. Hazırda Koreya Respublikası dünyanın ən güclü 20 dövləti sırasında xüsusi yer tutur.

Dörd yarımfəsildən ibarət olan 4-cü fəsil Sinqapurun dünya siyasətində oynadığı rola həsr olunmuşdur. Müəllif dünya siyasətində gedən proseslər işığında Sinqapurun vəziyyətini təhlil edərək göstərir ki, Malayziyanın cənubunda yerləşən və Cənub-Şərqi Asiyanın şəhər-dövləti olan Sinqapur XIX əsrin əvvəllərinə qədər Malayziyanın bir hissəsi kimi mövcud olmuşdur. Vaxtilə Britaniya və Yaponiyanın işğalına məruz qalan Sinqapur 1963-cü ildə Malayziya Federasiyasının tərkibinə daxil olmuş, 1965-ci ildə müstəqilliyini elan etmişdir. Dəniz yollarının kəsişdiyi məkanda yerləşdiyi üçün bu ölkə Cənub-Şərqi Asiyanın qapısı hesab edilir. Sinqapur Cənubi Koreya, Tayvan və Honkonq ilə birlikdə “Şərqi Asiyanın aslanları” qrupuna daxildir. Bu ölkələrlə birlikdə Sinqapur 30 il ərzində inkişaf edən ölkələrin sırasından ayrılaraq inkişaf etmiş ölkələrin arasına qatılmaqla nəhəng iqtisadi sıçrayış etmişdir. İqtisadi baxımdan London, Nyu-York və Honkonqdan sonra dünyada dördüncü aparıcı maliyyə mərkəzinə çevrilmişdir.

Müəllif Cənub-Şərqi Asiyanın, həmçinin Sakit okean hövzəsinin ən böyük müsəlman ölkələrindən biri olan Malayziyaya da öz əsərində geniş yer ayırmış və qeyd etmişdir ki, bu ölkə 1957-ci ilə qədər Britaniya imperiyasının tərkib hissəsi olmuş, 1963-cü ildə federativ dövlətə çevrilmişdir. Müstəqilliyini əldə etdikdən sonra Asiyanın ən sürətli inkişaf edən dövlətinə çevrilən Malayziya BMT, İslam Əməkdaşlıq Təşkilatı, ASEAN, ATEC, Qoşulmama Hərəkatı da daxil olmaqla müxtəlif beynəlxalq təşkilatların üzvü kimi bu təşkilatlarda böyük nüfuza malikdir. Malayziyanın beynəlxalq sistemdə mövqeyi regionalizmə əsaslanır. Bu ölkə dünyada, xüsusən də regionda nüvə silahının və digər kütləvi qırğın silahlarının yayılmasına qarşı çıxış edir, tərk-silah tərəfdarı olan dövlət kimi tanınır. Malayziyanın beynəlxalq münasibətlər sistemində istinad etdiyi prinsiplərdən biri də inkişaf etməkdə olan ölkələrin beynəlxalq siyasi münasibətlərə cəlb olunması məsələsidir. Malayziya eyni zamanda “sivilizasiyalı İslam” konsepsiyasının tərəfdarıdır və dünyada yanlış olaraq formalaşmış müsəlman dünyasının obrazını düzəltmək tərəfdarıdır. Bu konsepsiya özünü dini siyasətinin nümunəsində və beynəlxalq təşkilatlarda dinə münasibətlərində göstərir.

Əsərin sonuncu fəsli isə Vyetnam Sosialist Respublikasının dünya siyasətindəki yerinə həsr olunub. Burada müəllif tarixi proseslər işığında ölkədə baş vermiş hadisələri təhlil edərək göstərir ki, Cənub-Şərqi Asiya regionu kimi Vyetnamın tarixində sülh dövrləri çox az olmuşdur. Bu ölkə qədim, lakin münaqişələr və müharibələrlə zəngin bir tarixə malikdir. Qanlı münaqişələr və üzücü müharibələr ölkə iqtisadiyyatına ağır zərbə vurmuş, əhalinin sosial-iqtisadi şəraitini ağırlaşdırmışdır. İkinci Dünya müharibəsindən sonra ərazisi iki yerə parçalanan Vyetnam Soyuq müharibə boyunca geosiyasi rəqabət meydanına çevrilmişdir. Lakin 1990-cı illərdə Vyetnam bir çox regional və beynəlxalq iqtisadi layihələrdə yaxından iştirak etməyə başlamışdır.

*Ardı 4-cü səhifədə*

Yekun olaraq müəllif belə bir nəticəyə gəlmişdir ki, dünya siyasətində beynəlxalq münasibətləri, Asiya faktorunu nəzərə almadan irəli getmək, uğur qazanmaq qeyri-mümkündür. Həqiqətən də XX əsrin dünya miqyasında ən böyük hadisəsi Asiyanın oyanması hesab olunur. Oyanmış Asiya son yüzillikdə dünyanın yenidən qurulmasında və inkişafında mühüm rol oynamışdır. XXI əsrdə Asiya öz inkişafının miqyasına görə planetin ən mühüm hadisəsinə çevrilmişdir. Hal-hazırda ÇXR, Yaponiya, Cənubi Koreya, Malayziya, Sinqapur dünyaya müasir inkişafın yeni modellərini təqdim edirlər.

Ümumilikdə, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Rza Talıbovun Asiya ölkələrinin beynəlxalq siyasətdə oynadıqları rola, tutduqları mövqeyə və qazandıqları nüfuza diqqət çəkməsi hər bir oxucuda dolğun təəssürat yaratmaqdadır. Müəllif eyni zamanda beynəlxalq münasibətlər sisteminin tərkib hissəsi kimi Azərbaycan Respublikasının da Asiya ölkələri ilə çoxcəhətli əlaqələrinə yer vermiş, Azərbaycan Respublikasının Asiya qitəsində tutduğu yerin öyrənilməsinin aktuallığını geniş şərh etmiş, Şərq ilə Qərb sivilizasiyaları arasında yerləşən Azərbaycan Respublikasını "qızıl körpü" kimi xarakterizə etmiş və bu sahədə oynadığı rolu xüsusilə vurğulamışdır. Bu qiymətli əsər həm dövlətimizin beynəlxalq münasibətlər sistemində tutduğu yerin və oynadığı rolun öyrənilməsi, həm də siyasətşünaslıq elmimizdə yaranmış boşluğu doldurmaq baxımından xüsusi aktuallıq kəsb edir.

Ali təhsil müəssisələrində bakalavr və magistrlərin ehtiyaclarını ödəmək baxımından da zəruri olan "Asiya ölkələri beynəlxalq münasibətlər sistemində" kitabı bu ölkələr üzrə araşdırma aparan bütün tədqiqatçıların istisnasız olaraq yararlana biləcəkləri ilk mənbədir. Elmimizə layiqli töhfəsinə görə siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Rza Talıbovu təbrik edir və gələcək tədqiqatlarında ona uğurlar arzulayırıq.

**Emin ŞIXƏLİYEV**
*tarix üzrə fəlsəfə doktoru*

*5 oktyabr Beynəlxalq Müəllimlər Günüdür*

# Muxtar respublikada müəllimlər hərtərəfli qayğı əhatəsindədir

*YUNESKO-nun qərarına əsasən 1966-cı ildən etibarən hər il oktyabrın 5-i Beynəlxalq Müəllimlər Günü kimi qeyd olunur.*

Təhsilin inkişafı hər bir dövlətin ali məqsədlərindəndir. Bu məqsədin həyata keçirilməsi ölkədə yüksək savadlı və peşəkar müəllimlər ordusunun mövcudluğundan asılıdır. Müdriklərin fikrinə görə, hər bir millətin mədəni tərəqqisi təhsillə, təhsilin tərəqqisi isə müəllimlərlə bağlıdır. Tutduğu vəzifədən asılı olmayaraq, hər bir insan cəmiyyətdəki mövqeyinə, şəxsiyyət kimi formalaşmasına və qazandığı biliklərə görə özünü, ilk növbədə, məhz müəllimlərinə borclu sayır. Çünki onlar cəmiyyətin ən əsas vəzifəsini – gənc nəslin təlim-tərbiyəsini həyata keçirir, insanları kamillik zirvəsinə yüksəldir.

Azərbaycan xalqının milli təfəkküründə müəllim adı həmişə uca tutulmuş və bu peşə sahiblərinə böyük ehtiram göstərilmişdir. Azərbaycan müəllimləri də hər zaman ölkəmizin inkişafı və intibahı naminə fəaliyyət göstərmiş, şərəfli müəllim peşəsinə sadiq qalaraq xalqımızın maariflənməsi və tərəqqisi yolunda yorulmadan çalışmışlar.

Ümummilli liderimiz Heydər Əliyev elmin, təhsilin inkişafını, geniş dünyagörüşə malik, savadlı və intellektual gənc nəslin yetişdirilməsini dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirmişdir. Bu yolda təhsilin aparıcı qüvvəsi olan müəllimlərin fəaliyyətinə daim yüksək qiymət verən ulu öndər istər keçmiş Sovetlər Birliyi dövründə, istərsə də müstəqillik illərində savadlı və vətənpərvər müəllimlər ordusunun yaradılması qayğısına qalmış, müəllimlərin əməkhaqları artırılmış, sosial-məişət şəraitləri yaxşılaşdırılmış, onlar ölkəmizin ziyalı təbəqəsinin aparıcı qüvvəsinə çevrilmişdir. Ulu öndər müəllimlik peşəsini, müəllim əməyini yüksək qiymətləndirərək deyirdi: ***"Müəllim adı ən yüksək addır. Mən yer üzündə müəllimdən yüksək ad tanımıram".***

Ümummilli liderimizin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də təhsilin inkişafını dövlətin qarşısında duran ümdə vəzifə kimi qəbul edərək müəllimlərə qayğıkeş münasibət göstərir. Dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə ixtisaslı müəllim kadrlarının hazırlanması, müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür.

Naxçıvan Muxtar Respublikasında da təhsilin inkişafına xüsusi diqqət yetirilir. Bunun nəticəsidir ki, muxtar respublikada bu sahəni daim irəli aparan, öz peşəsini dərindən sevən peşəkar müəllim ordusu formalaşdırılmışdır. Cəmiyyətin maariflənməsi, bilikli, vətənpərvər, çalışqan və sağlam gəncliyin yetişdirilməsi yolunda yorulmadan çalışan muxtar respublika müəllimlərinin əməyi layiqincə qiymətləndirilir, onların sosial vəziyyətlərinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 22 iyun tarixli "Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında" Sərəncamı bu istiqamətdə atılan növbəti mühüm addımdır. Bu sərəncam muxtar respublika müəllimlərinin böyük sevincinə səbəb olmuş, onların işə məsuliyyətini daha da artırmışdır.

Müasir tədris şəraiti olan təhsil ocaqlarında dərs keçmək bu gün hər bir müəllimin arzusu, eyni zamanda onun əməyinə verilən qiymətin parlaq ifadəsidir. Ali Məclisin Sədri cənab Vasif Talıbovun təhsilə, təhsil işçilərinə göstərdiyi yüksək diqqət və qayğı sayəsində son 10 ildə muxtar respublikamızda 165 təhsil müəssisəsi tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuş, məktəblərdə müasir tədris şəraiti yaradılmışdır. Əvvəlki illərdə olduğu kimi, 2015-ci ildə də muxtar respublikada həyata keçirilən tədbirlərin ön sıralarında təhsil quruculuğu dayanır. Bu il Şərur rayonunda Kürkənd, Cəlilkənd, Babək rayonunda Qoşadizə, Xal-xal, Ordubad rayonunda Ordubad şəhər 3 nömrəli, Culfa rayonunda Gal kənd tam orta məktəbləri üçün müasir binalar tikilərək müəllim və şagirdlərin istifadəsinə verilmişdir. Hazırda Naxçıvan şəhərində Naxçıvan Dövlət Texniki və Musiqi kollecləri, Şərur rayonunda Kürçülü, Şərur şəhər 2 nömrəli, Oğlanqala, Axaməd, Yuxarı Yaycı, Babək rayonunda Nehrəm kənd 2 nömrəli, Xəlilli, Yarımca, Ordubad rayonunda Gilançay, Tivi, Culfa rayonunda Saltaq, Qızılca, Şahbuz rayonunda Daylaqlı, Kəngərli rayonunda Yurdçu kənd tam orta məktəbləri, həmçinin yeni yaradılmış Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey və Ordubad Şəhər Texniki-Peşə və Sürücülük Məktəbi üçün yeni binalar inşa olunur və ya əsaslı şəkildə yenidən qurulur.

Muxtar respublikada istifadəyə verilən məktəb binalarının müasir maddi-texniki baza ilə təmin olunması da təhsil sahəsinə göstərilən dövlət qayğısının mühüm tərkib hissəsidir. Bu günədək ümumtəhsil məktəblərində 600-dən çox elektron lövhə və 3700 dəst kompüter quraşdırılmışdır. Müəllim və şagirdlərin istifadəsinə verilən kompüterlərin 84 faizi internet şəbəkəsinə qoşulmuşdur. Yaradılan müasir şərait pedaqoji kollektivlərin işini xeyli asanlaşdırmaqla yanaşı, yeni təlim metodlarından istifadəyə də geniş imkanlar açmışdır.

Muxtar respublikada təhsilin inkişafına hesablanmış tədbirlər sırasında təhsil yarmarkalarının təşkilinin mühüm rolu vardır. 2005-ci ildən etibarən muxtar respublikada hər il ənənəvi olaraq keçirilən təhsil yarmarkaları gənc müəllimlərin məşğulluğunun təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır. Bu tədbirlərin nəticəsidir ki, ötən dövrdə təhsil yarmarkalarında iştirak edən yüzlərlə gənc müəllim muxtar respublikanın ümumtəhsil məktəblərində işlə təmin olunmuşdur. Bu il sentyabrın 4-də keçirilən növbəti təhsil yarmarkasında 136 nəfər gənc müəllim təyinatı üzrə məktəblərə göndəriş almış və peşə fəaliyyətlərinə başlamışdır.

Hər bir müəllim üçün ən gözəl hədiyyə onun yetişdirdiyi gəncin etimadı doğrultması, başını uca edərək layiqli vətəndaş kimi böyüməsidir. Bu gün mütərəqqi təhsil metodlarının tətbiqi müəllim zəhmətinin bəhrələrini daha da artırır, ali və orta ixtisas məktəblərinə tələbə qəbulunda uğurlu nəticələr qazanılır. Muxtar respublikada 2014-2015-ci tədris ilində də qəbul imtahanlarında yüksək nəticələr əldə edilmiş, məktəbi bitirən məzunlardan 1582-si ali məktəblərə qəbul olunmuş, onlardan 313-ü 500-700 arası bal toplamışdır.

Bu gün müəllim əməyi dövlətimiz tərəfindən layiqincə qiymətləndirilir. 2007-ci ildən bu günədək muxtar respublikada 35 müəllimin "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olması bunun əyani ifadəsidir. Həmçinin müəllimlərdən 65-i Azərbaycan Respublikasının, 83-ü Naxçıvan Muxtar Respublikasının "Əməkdar müəllimi" fəxri adlarına layiq görülmüş, 60 müəllim "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Müəllimlər gələcəyimiz olan gənclərin təhsil almasında, tərbiyə olunmasında xüsusi rol oynayır. Gələcəyimizin təməli müəllimlər tərəfindən qoyulur. Bu təməl nə qədər möhkəm qoyulsa, gələcəyimiz bir o qədər möhkəm qurulacaq, uğurlu olacaqdır".***

*Cəmiyyət üçün faydalı fərdlər hazırlamağı özünün həyat amalı kimi qəbul edən muxtar respublika müəllimləri bundan sonra da təhsilin inkişafında yorulmadan çalışacaq, vətənpərvər və bilikli gənc nəsil yetişdirəcəklər.*

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının məlumatı

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 75-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə seçkiqabağı təşviqatın aparılması 9 oktyabr 2015-ci il tarixdə başlayır və 2015-ci il oktyabrın 31-də saat 8$^{00}$-da dayandırılır. Seçkiqabağı təşviqatın aparılması üçün müəyyən olunmuş yerlərin siyahısı oktyabr ayının 9-dək dərc olunmalıdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 86.3-cü və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 73.3-cü maddəsinə müvafiq olaraq aşağıda qeyd olunan yerlər Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə 1 noyabr 2015-ci il tarixdə keçiriləcək seçkilərdə qeydə alınmış namizədlərin kütləvi tədbirlər yolu ilə seçkiqabağı təşviqatlarının aparılması üçün müvafiq yerli icra hakimiyyəti orqanlarının sərəncamlarına uyğun olaraq açıq və qapalı yerlər kimi müəyyən olunmuşdur.

| | |
|---|---|
| **Naxçıvan şəhərində**<br>Açıq yer – Naxçıvan Şəhər Stadionu<br>Qapalı yer – "Gənclik Mərkəzi" | **Şərur rayonunda**<br>Açıq yer – Şərur Olimpiya Stadionu<br>Qapalı yer – "Bahar" kinoteatrı |
| **Babək rayonunda**<br>Açıq yer – Babək Qəsəbə Stadionu<br>Qapalı yer – Babək Rayon Mədəniyyət Evi | **Ordubad rayonunda**<br>Açıq yer – Ordubad Şəhər Tədbirlər Meydanı<br>Qapalı yer – Ordubad Rayon Mədəniyyət Evi |
| **Culfa rayonunda**<br>Açıq yer – Culfa Şəhər Stadionu<br>Qapalı yer – Culfa Rayon Mədəniyyət Evi | **Kəngərli rayonunda**<br>Açıq yer – Qıvraq Qəsəbə Stadionu<br>Qapalı yer – Kəngərli Rayon Mədəniyyət Evi |
| **Şahbuz rayonunda**<br>Açıq yer – Şahbuz Şəhər Stadionu<br>Qapalı yer – "Araz" kinoteatrı | **Sədərək rayonunda**<br>Açıq yer – Sədərək Rayon Mədəniyyət Evinin ərazisi<br>Qapalı yer – Sədərək Rayon Mədəniyyət Evi |

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2015-ci ilin sentyabr ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt-saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1053 | 63,2 | 63,5 | 100,5 |
| 2. | Şahbuz rayonu | 365 | 21,9 | 22,0 | 100,5 |
| 3. | Culfa rayonu | 1265 | 75,9 | 76,1 | 100,3 |
| 4. | Kəngərli rayonu | 690 | 41,4 | 41,5 | 100,2 |
| 5. | Naxçıvan şəhəri | 3650 | 219,0 | 219,0 | 100,0 |
| 6. | Şərur rayonu | 1920 | 115,2 | 115,2 | 100,0 |
| 7. | Babək rayonu | 2100 | 126,0 | 126,0 | 100,0 |
| 8. | Sədərək rayonu | 325 | 19,5 | 19,5 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 21651 | 1299,0 | 1298,6 | 100,0 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **33019** | **1981,1** | **1981,4** | **100,0** |

**Qeyd:** Sentyabr ayında texniki itki nəzərə alınmaqla daxil olan 33 milyon 19 min kilovat/saat elektrik enerjisinin dəyəri 1 milyon 981 min 100 manat olmuş, cəmi 1 milyon 981 min 400 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,0 faizini təşkil edir.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 742